# AKADEMİK Ç.M.CUVARLI – 95



Azərbaycan EA-nın akademiki, SSRİ, Azərbaycan və Ukrayna Respublikalarının Dövlət, SSRİ EA-nın P.N.Yabloçkov adına və bir sıra başqa mükafatların laureatı, SSRİ-nin fəxri energetiki, Azərbaycan Əməkdar elm Xadimi, texnika elmləri doktoru, professor Çingiz Mehdi oğlu Cuvarlının 2008-ci il may ayının 1-də anadan olmasının 95 ili tamam olur.

Akademik Ç.M.Cuvarlı Azərbaycanda yüksək gərginliklər texnikası və fizikası, elektrofizika elmi məktəbinin yaradıcısı və rəhbəri olmuşdur. O, elektroenergetikanın fiziki-texniki və fundamental problemlərinin tədqiqində və həlində xüsusi xidmətləri olan alim idi. Onun rəhbərliyi ilə aparılan tədqiqatlar yüksək elmi səviyyəsi və nəticələri ilə fərqlənməklə yanaşı, dəfələrlə SSRİ və Azərbaycan SSR EA illik hesabatlarında elmi nailiyyətlər sırasında qeyd edilmişdir.

Akademik Ç.M.Cuvarlının rəhbərliyi altında aparılan elmi-texniki tədqiqatların nəticələrinin tətbiqi keçmiş ittifaqın enerji sistemlərinin və eyni zamanda Respublikamızın enerji sisteminin dayanıqlı işini əhəmiyyətli dərəcədə artırmışdır.

Onun rəhbərliyi altında işlənilmiş yüksək səmərəliliyə malik elmi tədqiqatların nəticələri iqtisadiyyatın müxtəlif sahələrində müvəffəqiyyətlə istifadə edilir.

Akademik Ç.M.Cuvarlı monoqrafiyaların, dərs vəsaitlərinin, dövri mətbuatda nəşr olunan çoxlu elmi məqalələrin və ixtiraların müəllifi olmuşdur.

Akademik Ç.M.Cuvarlının rəhbərlik etdiyi elmi məktəbdə Azərbaycanın, Rusiyanın, Ukraynanın, Polşanın, Çexoslovakiyanın, Çin Xalq Respublikasının və başqa ölkələrin nümayəndələri elmi hazırlıq keçmişlər.

Akademik Ç.M.Cuvarlının elmi-təşkilatı fəaliyyəti çox geniş və hərtərəfli olmuşdur. O, keçmiş ittifaqın bir sıra mərkəzi elmi-texniki sıralarının – SSRİ Ali Təhsil Nazirliyinin metodik şurasının, SSRİ Lenin və Dövlət Mükafatları Komitəsinin, Azərbaycan Sovet Ensiklopediyasının redaksiya heyətinin, Beynəlxalq Energetika Komitəsinin Azərbaycan şurasının üzvü, SSRİ Energetika Nazirliyinin BTİ-nin məsləhətçisi olub. O, keçən əsrin 60-cı illərində Azərbaycan EA Rəyasət Heyətinin

Fizika-riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi və Elmi-tədqiqat Energetika İnstitutunun direktoru vəzifəsində çalışmış, Azərbaycan EA Rəyasət Heyətinin üzvü olmuşdur.

Akademik Ç.M.Cuvarlının elmi məktəbinin fəaliyyəti onun çoxsaylı yetirmələri tərəfindən uğurla davam etdirilir. Akademik Ç.M.Cuvarlının həmkarlarının təşəbbüsü ilə Azərbaycan energetiklərinin, fiziklərinin, elektrofiziklərinin elmi nailiyyətləri akademik Ç.M.Cuvarlının xatirəsinə həsr olunmuş 2002-ci ildə Bakı, 2004-cü ildə İran İslam Respublikasının Təbriz, 2006-cı ildə Türkiyə Respublikasının Ankara şəhərində keçirilən Beynəlxalq konfranslarda maraqla dinlənilmişdi. Rumıniya Respublikası Dövlət Universitetinin arzu və təkliflərini nəzərə alaraq akakdemik Ç.M.Cuvarlının 95 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq Konfransın 2008-ci ilin sentyabr ayında Rumıniya Respublikasında keçirilməsinə qərar verilmişdir. Elmi-texniki nailiyyətlərin mübadiləsinə, elmi əməkdaşlığa, ölkələr arası dostluq, qardaşlıq əlaqələrinin inkişafına xidmət edən bu Beynəlxalq konfranslarda İran İslam Respublikası, Türkiyə Respublikası, Rusiya Federasiyası, Azərbaycan Respublikasının, Ukrayna, Moldova, ABŞ, Kanada, Polşa, Çin Xalq Respublikasının və digər dövlətlərin onlarla tanınmış alimləri iştirak etmişlər. Ç.M.Cuvarlı konfransları vüsət alaraq, Respublika və regionun hüdudlarından kənarda əks-sədaya səbəb olmuş və yüksək səviyyəli elmi toplantı olaraq qəbul edilmişdir. 2009-cu ildə Ərəb Əmirliyinin təklifini qəbul edərək Ç.M.Cuvarlının xatirəsinə həsr olunmuş V Beynəlxalq konfransın Dubay şəhərində keçirilməsi nəzərdə tutulur.

«Energetikanın problemləri» jurnalının banisi akademik Çingiz Cuvarlının əməyi Azərbaycan Dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. O, bir sıra orden, medal, dövlət və elmi qurumların mükafatları ilə təltif edilmişdir.

Çingiz Mehdi oğlu Cuvarlının əziz xatirəsi Respublika elmi ictimaiyyətinin nümayəndələrinin, həmkarlarının və çoxsaylı tələbələrinin qəlbində əbədi yaşayacaqdır.

Redaksiya heyəti